***Elcan Abdulla oğlu YUSİFBƏYLİ***
***magistr,***
***Səadət Aslan qızı HÜSEYNOVA***
***k.f.d., MSN MAKA Ekologiya İnstitutu***
***Azərbaycan Kooperasiya Universiteti***
***seadet_huseynova@mail.ru***

# HİRKAN MİLLİ PARKI VƏ QLOBALLAŞAN DÜNYA

***Xülasə***

Xəzər dənizinin cənub-qərb və cənub sahillərini əhatə edən nadir meşə massivi və planetimizdə bənzərsizliyini qoruyub saxlayan ekosistemlərdən biri olan Hirkan Milli Parkı ölkəmizin Ümumdünya İrs Siyahısına daxil edilən ilk təbiət ərazisidir. Tarixi qaynaqlar göstərir ki, Lənkəran həmişə öz əsrarəngiz təbiəti ilə səyyahların, qonaqların, tarixçilərin, ekoloqların diqqətini cəlb edib. Bu, hər şeydən öncə, onun əlverişli coğrafi mövqeyindən və iqlim şəraitindən irəli gəlib.

***Açar sözlər: Milli Park, biomüxtəliflik, ekspozisiya, rəqəmsal xəritə, ekosistem.***

## *Giriş*

Azərbaycanın qədim Hirkan meşələri relikt və endemik zənginliyinə və landşaftına görə UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Hirkan Milli Parkı Azərbaycanın cənub-şərqində, Lənkəran, Astara və Lerik inzibati rayonlarının ərazisində yerləşir. Hirkan Milli Parkı Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2004-cü ilin 9 fevral tarixində yaradılıb [1, s. 8,9].

Ölkəmizin ərazisində geoparkların yaradılması və qlobal geoparklar şəbəkəsinə qoşulmasına dair işlər davamlı şəkildə aparılır. “Xüsusi Mühafizə Olunan Təbiət Əraziləri və Obyektləri haqqında” Azərbaycan Respublikasının Qanununda müvafiq dəyişikliklər edilib, “Azərbaycan Respublikasının geoloji parklarının ümumi əsasnaməsi” təsdiq olunub.

Bu milli park Azərbaycanın ən qədim qoruqlarından biridir. Onun bitki örtüyünü və heyvanlar aləmini qorumaq məqsədi ilə 1936-cı ildə bu ərazi qoruq elan olunub. Qoruq 888 hektar sahədə 1936-cı il dekbar ayının 8-də ilk dəfə olaraq Lənkəran Qoruğu adı ilə yaradılıb, sonradan onun sahəsi 15 min hektara qədər artırılıb. 1961-ci ildə o, Qızılağac Dövlət Qoruğunun filialına çevrilib. 1969-cu ildə isə Ulu öndər Heydər Əliyevin tapşırığı ilə Hirkan Dövlət Qoruğu müstəqil qoruq elan edilib. Milli Park 21 mindən artıq hektar ərazidə yaradılıb. Sonradan onun ərazisi genişləndirilərək 40358 hektara çatdırılıb. 2005-ci ildə bir çox heyvan növlərinin qorunub saxlanılması məqsədilə 2 mindən çox hektar ərazidə Hirkan Dövlət Yasaqlığı yaradılıb [2, s.110-113].

Milli Parkın yaradılmasında məqsədlər bunlar idi: həmin ərazidə təbiətin kompleks şəkildə qorunması, Üçüncü dövrün relikt və endemik bitki növlərinin mühafizəsi, “Qırmızı Kitab”a daxil edilmiş flora və fauna növlərinin qorunub saxlanılması və s. Qoruq yaradılanda burada ilk növbədə nəsli kəsilmiş heyvanları bərpa etmək qərara alınıb. Bu səbəbdən 1985-ci ildə qoruğa Ussuri çayının ətrafında yaşayan 77 xallı maral gətirilmişdir [2, s.110-113].

Hirkan meşələrinin hər min hektarına 32 bitki növü düşür, bu isə əraziyə Qafqazın xarakterik floraya malik 18 ərazisi arasında birinci yeri tutmağa imkan verir [3].

Azərbaycanda yayılan 435 ağac və kolun 150-si Hirkan meşələrində bitir, onlardan 36-sı isə endemikdir. Burada “Qırmızı Kitab”a daxil edilmiş Hirkan şümşadı, Hirkan ənciri, ipək akasiyası, ürəkyarpaq qızılağac, vəhşi heyvan növlərindən isə ayı, vaşaq, dağ keçisi, xallı maral, çöl donuzu, bəbir və s. qorunur. Hirkan Milli Parkında 100-dən çox təbiət və mədəniyyət abidələri var [1, s. 8,9].

Milli Park flora və faunası ilə zəngindir. Buradakı ağacların əksəriyyətində Hirkan adı çəkilməsi fərdi xüsusiyyət daşıyır, bunların ancaq adıçəkilən əraziyə mənsubluğunu təsdiq edir. Hirkan ağcaqayını, Hirkan armudu, Hirkan ənciri, Hirkan bikəvəri, Hirkan şümşadı və daha onlarca bu ünvanlı ağac və gül kolu, dəmirağac, şabalıdyarpaq palıd, yarpaqvarı qızılağac, qanad-meyvə, yalanqoz - bütün bunlar qiymətli, nadir ağaclardır və bunlardan hazırlanan qiymətli əşyalar dünyanın məşhur muzeylərində indi də saxlanılır.

Parkın relikt və endemik bitkilərinin, heyvanat aləminin, zəngin bitki örtüyünün mühafizəsi ilə əlaqədar son illərdə xeyli iş görülüb. Bu park, Talış dağları və meşələri haqqında danışarkən akademik Həsən Əliyevin 1957-ci illərdən başlayaraq, burada apardığı elmi işlərə nəzər salmaq kifayətdir. Keçmiş SSRİ-nin tanınmış təbiət alimləri ilə bu yerlərdə tez-tez olan, geniş tədqiqatlar aparan akademik XVII əsrin əvvəllərində bura səfər edən Almaniyanın Rusiyadakı səfiri Adam Olerinin Muğan səhrası, keçilməz Lənkəran meşələri, Talış dağları barədəki məlumatlarını aşkar edərək sistemləşdirib. Diplomat yazıb ki, buranın füsunkarlığını görmədən, oranı təsəvvür etmək çətindir. Bura elə “cənnət bağı”nın özüdür.




**Şəkil 1. Hirkan Milli Parkının rəqəmsal marşrut xəritəsi**

Geniş sahəsinə, hər qarış torpağa düşən bitkinin zənginliyinə görə üstün olan Hirkanın özünün ətraf mühitə, təbiətə böyük təsiri var. Burada hər ağac, hər kol can dərmanıdır. Cənub bölgəsinin bu zəngin parkı şəfa qaynağıdır. Azərbaycan təbiətşünasları dəfələrlə Hirkanın təbii gözəlliklərindən savayı, onun bitkilərinin min bir dərdin dərmanı olduğunu sübut ediblər. Onlardan biri – Seyid Əli Kazımbəyov "Səidiyyə" əsərində yazır ki, "taun və vəba xəstəlikləri bütün ətrafı – Ərdəbil, Rəşt, Qarabağ, Şirvan və qeyri yerləri tutduğu halda Talışa sirayət etmədi". Tədqiqatlar nəticəsində bəlli olmuşdur ki, bu yerlər bitkilərin biomüxtəlifliyi, yüzlərlə ağac və kolun təbii dərman mənbəyi olması, landşaftın özündə ayrı-ayrı xəstəliklərə qarşı müvazinətin güclü olması və s. ilə əlamətdardır.

Hirkan meşələrinin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi bizə qürur hissi yaşatmaqla bərabər, eyni zamanda, təbiətimizin flora və faunasının zənginliyini qorumaq baxımından məsuliyyətimizi qat-qat artırır.



**Şəkil 2. Hirkan Milli Parkı**

Hirkan Milli Parkının ərazisinin çox hissəsi meşələrlə örtülüdür. Burada ən isti ayın orta temperaturu 27 dərəcə olur. Hirkan Milli Parkının ərazisi şaquli qurşaq üzrə çox ucalmasa da (1000 m-ə qədər), şərqdən qərbə dağlara qalxdıqca, meşələrin şaquli qurşaqlar üzrə dəyişdiyini müşahidə etmək olar: aşağı hissədə əsasən, şabalıdyarpaq palıd, dəmirağac və vələsin (Lənkəran akasiyası, Xəzər lələyi, Hirkanənciri, Qafqaz xurması, Azat və s. ilə birlikdə) üstünlük təşkil etdiyi meşələr yayılıb.

Hündürlüyə qalxdıqca, əsasən dəmirağac, qismən də şabalıdyarpaq palıd azalır, onları fıstıq meşələri əvəz edir. Milli Parkın meşələrində ayıdöşəyi, Hirkan bigəvəri, Hirkan şümşadı, pırkal, müxtəlif lianlar geniş yayılıb.

Hirkan Milli Parkının ornitofaunasına daxil olan qara leylək, məzar qartalı, qıvrımlələk qutan, turac, mərmər cürə, Talış qırqovulu, Hirkan arıquşu, toğlugötürən və s. quşların adları Azərbaycanın "Qırmızı Kitab"ına daxil edilmişdir. Parkın heyvanat aləmi çox zəngindir. Burada məməlilərdən bəbir, xallı maral, vaşaq, porsuq, qaban, cüyür, yenot və s. növlərə rast gəlmək olar.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin prezident kitabxanası. Milli Parklar
2. Mirhaşım Talışlı, Etibar Əhədov. Lənkəran: ensiklopedik məlumat. Bakı-2017.
3. https://az.sputniknews.ru/20161021/dom-ljudoeda-girkanskij-zapovednik-407436516.html

***Елджан Абдулла оглы Юсифбейли,***
***магистр,***
***Саадат Аслан кызы Гусейнова,***
***к.х.н. МОП НАКА Институт Экологии***
***Азербайджанский Университет Кооперации***
***seadet_huseynova@mail.ru***

**Гирканский Национальный Парк и глобализация мира**

***Резюме***

Гирканский Национальный Парк редкий лесной массив, охватывающий юго-западное и южное побережье Каспийского моря и одна из сохранивших свою уникальность экосистем на нашей планете, первая природная территория, включенная в Список всемирного наследия нашей страны. Исторические источники свидетельствуют, что Ленкорань всегда привлекал внимание путешественников, гостей, историков и экологов своей загадочной природой. Это связано, прежде всего, с его выгодным географическим положением и климатическими условиями.

***Ключевые слова. национальный парк, биоразнообразие, экспозиция, цифровая карта, экосистема.***

***Elcan Abdulla Yusifbeyli***
***master,***
***Saadat Aslan Huseynova***
***PhD in Chemistry***
***Hyrkan National Park and the globalizing world***
***MDİ NASA Institute of Ekoloji***
***Azerbaijan Cooperation University***
***seadet_huseynova@mail.ru***

**Hirkan National Park and globalization of the world**

***Summary***

Hirkan National Park, a rare forest massif covering the southwestern and southern shores of the Caspian Sea and one of the ecosystems that has preserved its uniqueness on our planet, is the first natural area included in the World Heritage List of our country. Historical sources show that Lankaran has always attracted the attention of travelers, visitors, historians, and ecologists with its mysterious nature. This is primarily due to its favorable geographical position and climatic conditions.

***Key words. National Park, biodiversity, exposition, digital map, ecosystem.***